

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 164 (24.301)

*8 sentyabr 2023-cü il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev türk dövlətlərinin Bakıda keçirilən tədbirlərdə iştirak edən nazirlərini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 7-də Türk Dövlətləri Təşkilatının üzv və müşahidəçi dövlətlərinin təbii fəlakət və fövqəladə halların idarə edilməsi üzrə nazirlərinin ikinci görüşünün və "Bakı-2023" beynəlxalq təliminin iştirakçıları – Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüraliyev, Türkiyənin daxili işlər naziri Ali Yerlikaya, Qazaxıstanın fövqəladə hallar naziri Sırım Şaripxanov, Qırğızıstanın fövqəladə hallar naziri Boobek Ajikeev, Özbəkistanın fövqəladə hallar naziri Abdulla Kuldaşev və Şimali Kiprin daxili işlər naziri Dursun Oğuzu qəbul edib.




Görüşdə çıxış edən **Prezident İlham Əliyev** dedi:

– Sizi səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz.

Bu gün Bakıda Türk Dövlətləri Təşkilatının fövqəladə hallar nazirlərinin iclası öz işinə başlayır. Bu, çox önəmli hadisədir. Əminəm ki, iclas çox yaxşı keçəcək, nəticələr də çox uğurlu olacaq.

Bildiyiniz kimi, iki aydan sonra türk dövlətlərinin başçıları səviyyəsində Zirvə görüşü keçiriləcəkdir. İndi Zirvə görüşünə böyük hazırlıq işləri gedir, o cümlədən fövqəladə halların idarə edilməsi istiqamətində də işlər gedir. Bildiyimə görə, iclasda, o cümlədən qarşılıqlı yardım haqqında sazişin hazırlanması da nəzərdə tutulmuşdur. Buna böyük ehtiyac var. Çünki hamımız yaxşı bilirik ki, son vaxtlar bölgəmizdə və bütövlükdə, dünyada fövqəladə halların sayı kəskin artıb. Bunun bir çox səbəbləri var. Ancaq fakt odur ki, bu gün misli görünməmiş ölçüdə daşqınlar, zəlzələlər, yanğınlar adi hala çevrilib. Fürsətdən istifadə edərək bir daha qardaş Türkiyəyə dəhşətli zəlzələdə həlak olanların xatirəsini hörmətlə anaraq bir daha başsağlığı vermək istəyirəm. Bildiyiniz kimi, Azərbaycan ilk saatlardan, ilk dəqiqələrdən bu dəhşətli zəlzələ ilə bağlı öz səylərini göstərmişdir. Hazırda Qəhrəmanmaraş şəhərində Azərbaycan dövləti tərəfindən inşa ediləcək şəhərciyin son parametrləri müəyyən edilir və yaxın zamanlarda biz inşaata başlayacağıq.

Azərbaycanın bu istiqamətdə təcrübəsi kifayət qədər böyükdür. Son illər ərzində maddi-texniki bazamızın möhkəmləndirilməsi istiqamətində işlər aparılıb, xilasedicilərin peşəkarlığı artıb. Bütövlükdə, bizim müxtəlif bölgələrdə, o cümlədən Türk dünyasını birləşdirən ölkələrdə apardığımız xilasedici missiyalarımız əyani şəkildə bizim imkanlarımızı və niyyətimizi göstərir. Biz hər zaman bir-birimizin yanında olmalıyıq, Türk Dövlətləri Təşkilatının inkişafı ilə bağlı bütün üzv ölkələr öz dəyərli töhfələrini verirlər, o cümlədən Azərbaycan. Azərbaycan bütün dövrlərdə bu təşkilatın gücləndirilməsinə hər zaman öz dəstəyini əsirgəməmişdir və bizim xarici siyasət prioritetləri arasında təşkilata üzv ölkələrlə əlaqələr birinci yer tutur. Bunu mən Prezident kimi dəfələrlə bəyan etmişəm, eyni zamanda biz bunu əməli işlərdə də göstərmişik.

Türk dünyası böyük bir ailədir və şadam ki, son illər ərzində bütün üzv və müşahidəçi ölkələr tərəfindən təşkilata böyük dəstək göstərilir. Təbii ki, növbəti illərdə də bu dəstək göstərilməlidir. Bu gün dünya miqyasında Türk Dövlətləri Təşkilatı öz layiqli yerini tuta bilibdir. Ancaq bundan sonra da fəal çalışmalıyıq ki, bizim təsir imkanlarımız daha da geniş olsun. Burada, əlbəttə ki, həm qarşılıqlı yardım, eyni zamanda iqtisadi əlaqələrin gücləndirilməsi, siyasi müstəvidə daimi koordinasiya və məsləhətləşmələrin aparılması, təhlükəsizlik sahəsində qarşılıqlı yardım, yəni bütün bunlar önəmli amillərdir və bizim birliyimizi daha da gücləndirəcək. Əminəm ki, yaxın gələcəkdə bizim təşkilatımızın dünyadakı mövqeyi və rolu daha da artacaqdır.

Bir daha demək istəyirəm ki, Azərbaycan üçün türk dövlətləri ilə əlaqələr xarici siyasətdə birinci dərəcəli vəzifədir. Təsadüfi deyil ki, son bir neçə il ərzində mənim Təşkilata üzv olan ölkələrə çoxsaylı səfərlərim həyata keçirilmişdir. Təşkilata üzv ölkələrin dövlət və hökumət başçılarının da Azərbaycana bir çox səfərləri həyata keçirilmişdir və bu il də bu səfərlər nəzərdə tutulur. Yəni bu, bir daha onu göstərir ki, biz düzgün yoldayıq.

Bu gün bizim aramızda ilk dəfə olaraq Şimali Kiprin nümayəndəsi də iştirak edir. Şimali Kipr türk qardaşlarımızı, xüsusilə salamlamaq istəyirəm. Nazir burada müşahidəçi kimi, amma eyni zamanda öz bayrağı ilə təmsil olunur. Təbii ki, Şimali Kiprin bayrağı da bizim tədbirdə dalğalanmalıdır və dalğalanacaqdır. Azərbaycan bütün Türk dünyasında birləşən qardaşlarımızın hər zaman yanında olubdur və çox sevindirici haldır ki, son Zirvə görüşündə Şimali Kipr Türk Dövlətləri Təşkilatına müşahidəçi seçilmişdir. Bu münasibətlə bütün türk qardaşlarımızı ürəkdən təbrik edirəm. Bu, bir daha bizim birliyimizi göstərir, bir daha iradəmizi göstərir. Onu göstərir ki, biz haqq yolunda hər zaman bir-birimizin yanındayıq və yanında olacağıq.

Mən bir daha sizi salamlayıram. Sizə uğurlar, yaxşı nəticələr arzulayıram. Təmsil etdiyiniz ölkələrin dövlət və hökumət başçılarına mənim səmimi salamlarımı çatdırın.

***

Türk Dövlətləri Təşkilatının Baş katibi **Kubanıçbek Ömüraliyev** çıxış edərək dedi:

– Möhtərəm Prezident, sabahınız xeyir.

Hörmətli İlham Heydər oğlu, vaxt tapıb bizi qəbul etdiyiniz üçün Sizə nümayəndə heyəti adından və şəxsən öz adımdan təşəkkürümü bildirmək istəyirəm. Siz də öz çıxışınızda qeyd etdiyiniz kimi, bu Sizin və dövlət başçılarının təşkilatımıza və fəaliyyətimizə diqqətinin göstəricisidir.

Kubanıçbek Ömüraliyev Türk Dövlətləri Təşkilatının üzv və müşahidəçi dövlətlərinin təbii fəlakət və fövqəladə halların idarə edilməsi üzrə nazirlərinin ikinci görüşünün və "Bakı-2023" beynəlxalq təliminin əhəmiyyətinə toxundu. O, Azərbaycan Prezidentinin Türk Dövlətləri Təşkilatının fəaliyyətinə verdiyi dəstəyi xüsusi qeyd edərək bildirdi:

– Fürsətdən istifadə edərək bir daha Sizə Türk Dövlətləri Təşkilatının fəaliyyətinə verdiyiniz ardıcıl dəstəyə görə təşəkkürümü bildirmək istəyirəm. Zati-aliləri, bütün dünyada sürətli dəyişikliklər, həmçinin mühüm hadisələr, qlobal və regional səviyyələrdə çağırışlar türk coğrafiyasında inteqrasiya üzrə əməkdaşlığı daha əhəmiyyətli, xalqlarımızı isə daha yaxın edir. Qardaş türk xalqları arasında münasibətlər böyük strateji əhəmiyyətə və potensiala malikdir. 2023-cü il fevralın 6-da qardaş Türkiyənin ərazisində baş vermiş dağıdıcı zəlzələlər zamanı biz şahidi olduq ki, təkcə dövlətlər deyil, həm də xalqlarımız ayağa qalxdı və qardaş Türkiyəyə görünməmiş həmrəylik nümayiş etdirdi və yardım göstərdi.

Kubanıçbek Ömüraliyev təbii fəlakət və fövqəladə hallarla mübarizədə Türk Dövlətləri Təşkilatına üzv ölkələrin səyləri birləşdirməsinin vacibliyinə toxundu. Qonaq Azərbaycan Prezidentinin təşəbbüsü ilə bu ilin martında Ankarada Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşünün keçirildiyini xatırladaraq həmin tədbirdə vacib qərarların qəbul edildiyini vurğuladı.

***

Türkiyənin daxili işlər naziri **Ali Yerlikaya** çıxış edərək dedi:

– Hörmətli cənab Prezident, əvvəlcə sıx qrafikinizdə vaxt ayırıb bizi qəbul etdiyiniz üçün təşəkkürlərimi bildirirəm.

Sizə cənab Prezidentimizin ən səmimi salamlarını gətirmişəm.

Bu gün burada – qardaş Azərbaycan torpaqlarında olmaqdan böyük məmnunluq duyuram. Hörmətli Prezidentimizin və Zati-alinizin himayəsi ilə inkişaf edib güclənən əməkdaşlığımızın dünyada tayı-bərabəri yoxdur. Biz də Daxili İşlər Nazirliyi olaraq Azərbaycanın qurumları ilə əməkdaşlığımızı səmimiyyət və təmənnasızlıq əsasında inşa etmişik. Bu müddətdə keçirdiyimiz görüşləri isə diplomatik təmasdan daha çox qardaşlıq həmrəyliyimizin bir ifadəsi olaraq görürük.

Hörmətli cənab Prezident, icazənizlə, Qəhrəmanmaraş zəlzələlərində Can Azərbaycanımızın uzatdığı yardım əlini hüzurunuzda bir daha minnətdarlıqla yad etmək istəyirəm. Məlum olduğu kimi, çox böyük bir acını geridə qoymağa çalışırıq. Bu dövrdə Zatialinizin liderliyi ilə Azərbaycanın qardaş köməyi nəcib millətimiz tərəfindən heç vaxt unudulmayacaq. Yardımımıza ilk gələn Azərbaycan olduğu kimi, ən son ayrılan axtarış-xilasetmə heyətləri də yenə Azərbaycanın heyətləri olmuşdur. Bütün maddi və mənəvi dəstəklərini bizə çatdırmaq üçün səfərbər olan azərbaycanlı qardaşlarımıza minnətdarlığımızı nə qədər ifadə etsək, azdır.

Türkiyənin daxili işlər naziri təbii fəlakət və fövqəladə halların idarə edilməsi sahəsində həyata keçirdikləri fəaliyyət barədə məlumat verdi, Azərbaycanın aidiyyəti qurumları ilə əməkdaşlıqdan danışdı və bu əməkdaşlığın hər iki ölkənin dövlət başçılarının səmimi münasibətlərinə əsaslanaraq daha da gücləndirəcəklərini bildirdi. Qonaq Türkiyədə baş verən dəhşətli zəlzələdən sonra Prezident İlham Əliyevin təşəbbüsü ilə Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Ankarada keçirilmiş Fövqəladə Zirvə görüşünün önəmini qeyd edərək dedi:

– Hörmətli cənab Prezident, hüzurunuzda olmaqdan duyduğum məmnuniyyəti bir daha ifadə edir, bu sıx qrafikinizdə bizə vaxt ayırdığınız üçün təşəkkürlərimi bildirirəm. Həmçinin yaxınlaşmaqda olan Qarabağ Zəfərimizin ildönümü münasibətilə qardaş Azərbaycanımızı təbrik edir, şəhidlik zirvəsinə yüksəlmiş bütün azərbaycanlı qardaşlarımıza rəhmət və minnətlə anıram. Sizə ehtiramımı ifadə edirəm, cənab Prezident.

***

**Prezident İlham Əliyev:** – Çox sağ olun, təşəkkür edirəm.

Dövlətimizin başçısı Türkiyə Prezidentinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

## Prezident İlham Əliyev Avropa Yenidənqurma və İnkişaf Bankının nümayəndə heyətini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 7-də Avropa Yenidənqurma və İnkişaf Bankının birinci vitse-prezidenti Yurgen Riqterinkin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Söhbət zamanı bu ilin yanvarında Davosda Prezident İlham Əliyevin Avropa Yenidənqurma və İnkişaf Bankının birinci vitse-prezidenti ilə görüşü məmnunluqla xatırlandı.

Görüşdə Avropa Yenidənqurma və İnkişaf Bankının Azərbaycanda fəaliyyət istiqamətləri və ölkəmiz üçün prioritet sahələr, xüsusilə bərpa olunan enerji, nəqliyyat, logistika, kiçik və orta biznesin inkişafı sahələrində, Orta Dəhliz istiqamətində əməkdaşlıq məsələləri müzakirə olundu.

Avropa Yenidənqurma və İnkişaf Bankı ilə Azərbaycan arasında əməkdaşlığın daha da genişləndirilməsinin önəmi vurğulandı, Bankın ölkəmizin enerji və nəqliyyat layihələrinə, xüsusilə Cənub Qaz Dəhlizinə ayırdığı kreditlərin vacibliyi qeyd olundu.

Söhbət zamanı qarşılıqlı maraqdoğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**



# Aqrar sahədə aparılan islahatlar innovasiyalı inkişafı hədəfləyir

*Ölkə Prezidenti cənab İlham Əliyevin ötən il dekabrın 22-də imzaladığı Fərmana əsasən Naxçıvan Muxtar Respublikasında nümayəndəlik institutu təsis edildikdən sonra bir sıra sahələrdə keyfiyyət dəyişikliklərinə yol açan, böyük uğurlar, nailiyyətlər hədəfləyən islahatlar reallaşdırılır. Həm qlobal, həm də əvvəlki illərdə biganəlik baxımından əhalini ən çox düşündürən, narahat edən məsələlərin cəmləşdiyi kənd təsərrüfatı yönündə həyata keçirilən işlər də xüsusi diqqəti çəkir...*

Naxçıvanda 2023-cü ilin ötən dövrü bütün sahələrdə olduğu kimi, aqrar sektorda da keyfiyyət dəyişikliklərinə yol açacaq addımlardan biri, bəlkə də, elə birincisi yerlərdə vətəndaşlarla görüşlərin keçirilməsi və reallaşdırılacaq layihələrin məhz insanların təklif-tövsiyələrinə, problemlərin həlli yollarına uyğun hazırlanmasıdır. Bu məqsədlə mart ayının əvvəllərindən başlayaraq Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşları tərəfindən mütəmadi şəkildə təsərrüfat sahibləri ilə görüşlər keçirilib, onların problemləri dinlənilib, nöqsanların aradan qaldırılması üçün müvafiq tədbirlər görülüb, aqrar sahənin müasir dövrün tələblərinə uyğun, innovasiya yönümlü inkişafının təmin edilməsi məqsədilə tövsiyələr verilib. Fermerləri ən çox narahat edən suvarma ilə bağlı problemlərin həlli istiqamətində Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin məsul şəxsləri də cəlb olunaraq Babək rayonunun Qahab kəndində suvarma suyuna olan tələbatın təmin edilməsi üçün əlavə su verilib. Şərur rayonunun Zeyvə kəndində əkin həyata keçirən xarici investorun nümayəndələri ilə yerli təsərrüfat sahibləri arasında münasibətlərin dostluq çərçivəsində inkişaf etdirilməsi üçün həmin kənddə sahələrə baxış keçirilib və tövsiyələr verilib. Sədərək rayonunda balıqçılığın və camışçılığın inkişaf etdirilməsi imkanlarının müəyyənləşdirilməsi üçün rayon ərazisində mövcud su hövzələrinin ətrafına baxış keçirilib, investorların cəlb olunması istiqamətində işlərə başlanılıb. Təsərrüfat sahiblərinin qaldırdıqları məsələlərlə bağlı rayon və şəhər İcra hakimiyyətlərinə müraciətlər ünvanlanaraq gübrə, toxum, pestisid istehsal vasitələrinə olan tələbat müəyyənləşdirilib və müvafiq tədbirlər görülüb.

2023-cü ilin əvvəlindən bəri istehsalat təqviminə nəzər saldıqda ilk nəzərəçarpan uğur göstəricisi, heç şübhəsiz, bütün naxçıvanlı təsərrüfat adamları üçün ən əlamətdar hadisələrdən sayılan mayın 17-19-da Bakı Ekspo Mərkəzində təşkil olunan 16-cı Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı – "Caspian Agro" və 28-ci Azərbaycan Beynəlxalq Qida Sənayesi – "InterFood Azerbaijan" sərgiləridir. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi, fermerlər, ailə təsərrüfatçıları ilk dəfə Bakı şəhərində keçirilən beynəlxalq bir tədbirdə birgə iştirak etdilər. Sərgilərdə 60 nəfər heyətlə, çoxlu sayda bir-birindən dəyərli, müxtəlif çeşidli kənd təsərrüfatı məhsulları ilə muxtar respublika layiqli şəkildə təmsil olundu. "Orqanik Naxçıvan" brendi ilə həm hazır məhsullar, həm də təbii bitkilər Naxçıvan pavilyonunda yer almışdı. Bir-iki faktı qeyd etmək kifayətdir ki, sərgilərə necə cidd-cəhdlə hazırlıq aparıldığı barədə dolğun təsəvvür yaranmış olsun. Dağ bitkiləri, arıçılıq məhsulları, konservləşdirilmiş məhsullar, turşular, şirələr, mineral içkilər, quru meyvələr, tərəvəzlər, o cümlədən tezyetişən əriklər, gilas, gilənar, çiyələk, kartof, alma, qablaşdırılmış dərman bitkiləri, süd və ət məhsulları ilə yanaşı, Naxçıvandan diri halda sazan balığı, dibçəkdə Ordubad limonu da aparılmışdı ki, bu da, təbii olaraq, qonaqlarda xüsusi maraq oyatdı. Muxtar respublikanın ən kiçik rayonu Sədərəkdən bir ailə təsərrüfatçısı 37 növdən çox məhsulu sərgiyə çıxarmışdı. Sərgidə iştirak edən ölkə başçısı cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Naxçıvan pavilyonuna gəlişi, məhsulların yüksək qiymətləndirilməsi bütün naxçıvanlı fermerlərə, eyni zamanda kənd təsərrüfatı sahəsində sonrakı dövr islahatlarına bir dəstək, stimul rolunu oynadı.






Bu il fermerləri narahat edən daha bir məsələyə, texnikalarla təminata da diqqət ayrılıb, kənd təsərrüfatı sahəsində həyata keçirilən struktur islahatları çərçivəsində "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti nazirliyin tabeliyinə verilib, qurumun adı dəyişdirilərək "Naxçıvan Aqroservis" Açıq Səhmdar Cəmiyyəti adlandırılıb. "Naxçıvan Aqroservis" ASC-də aparılmış monitorinqlər zamanı cəmiyyətin texnika parkında xeyli sayda texnika və texnoloji avadanlıqların əvvəlki illərdə olduqca baha qiymətə fermerlərə təklif olunması səbəbindən onların uzun müddət satışının həyata keçirilmədiyi aşkar edilib. Mövcud bazar qiymətlərinə uyğun qiymətlər müəyyənləşdirildikdən sonra texnika və avadanlıqlar lizinq və nağd qiymətlərlə satışa çıxarılacaq. Cari ilin ilk 7 ayının statistikasına görə, "Naxçıvan Aqroservis" ASC-nin texnika parkında 402 texnika və texnoloji avadanlıq mövcuddur.





Struktur islahatları ötən illər ərzində yığışıb qalmış maddi məsələlərin də yenidən gündəmə gəlməsi və öz həllini tapmasına yol açıb. Belə ki, 2022-ci ildə Şərur, Babək və Kəngərli rayonlarında 12 istehsalçı tərəfindən 73,3 hektar sahədə tütün əkini həyata keçirilib. Toplanılan tütün Şərur rayonu üzrə 2 istehsalçı tərəfindən 8 hektar sahədən 5185,3 kiloqram, Babək rayonu üzrə 1 istehsalçı tərəfindən 12,1 hektar sahədən 7334,9 kiloqram və Kəngərli rayonu üzrə 9 istehsalçı tərəfindən 53,2 hektar sahədən 70361,2 kiloqram olub və "Cahan Tabak Beynəlxalq" Məhdud Məsuliyyətli Cəmiyyətinin qəbul məntəqəsinə təhvil verilib. Lakin həmin ildə istehsalçılar təhvil verdikləri quru tütünə görə subsidiya ala bilməyiblər. Bu səbəbdən həmin istehsalçılara 14978,31 manat olmaqla subsidiyanın verilməsi təmin edilib. Bundan başqa, yeni doğulmuş buzovlara və arıçılığa görə fermerlər əvvəllər sənədləşmələrin düzgün aparılmaması və digər səbəblərdən subsidiyanı ala bilməyiblər. Hazırda Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidməti ləğv olunduğuna görə arı ailələrinə və buzovlara görə subsidiyaların verilməsinin təmin edilməsi istiqamətində işlər Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi tərəfindən həyata keçirilir.

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyində elektron informasiya sistemi yaradılana və Azərbaycan Respublikasının "Elektron kənd təsərrüfatı" informasiya sisteminə inteqrasiya olunanadək "Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı ilə əlaqədar fiziki və hüquqi şəxslərə Naxçıvan Muxtar Respublikasının büdcəsinin vəsaiti hesabına subsidiyaların verilməsinin müvəqqəti Qaydası"nın layihəsi, əsaslandırılması və hüquqi ekspertiza sənədi Naxçıvan Muxtar Respublikasının Ali Məclisi və Nazirlər Kabinetində baxılıb və təsdiq edilib. Sözügedən qaydalarda Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ilə təsdiq edilmiş "Arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə saxladıqları hər arı ailəsinə (pətəyə) görə subsidiya verilməsi Qaydası"nın tələblərinə əsasən 2018-ci ildə fəaliyyət göstərən arıçılara sentyabr ayından etibarən subsidiyalar veriləcək. Həyata keçirilən islahatlar çərçivəsində nazirliyin tərkibində muxtar respublikanın bütün bölgələrini əhatə edən Naxçıvan, Şərur və Culfa Regional Dövlət Aqrar İnkişaf mərkəzləri və Naxçıvan Aqrar Xidmətlər Mərkəzi yaradılıb. Həmin mərkəzlər nazirliklə fermerlərin, ailə təsərrüfatçılarının, aqrar sektorda fəaliyyət göstərən sahibkarların əlaqəli işini təmin edəcək. Mərkəzdə bitkiçiliyin, heyvandarlığın təşkili, meliorasiya, irriqasiya məsələləri, örüşlərə, otlaqlara nəzarət və digər bu kimi məsələlər tənzimlənəcək.

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq olunan "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda kənd təsərrüfatı sahəsinin inkişafı ən əhəmiyyətli hədəflərdən biri kimi qarşıya qoyulub, 11 prioritet istiqamətə əsaslanan proqramda aqrar sahəyə aid 270-dən çox altlayihə müəyyənləşdirilib. İlkin olaraq Babək rayonu ərazisində layihələndirmə işlərinə başlanılıb. Gələcəkdə Heydər Əliyev və Araz Su anbarlarından yeni su xətləri çəkiləcək, "Araz-1" və "Araz-2" nasos stansiyalarının fəaliyyəti yenidən bərpa olunacaq. Dövlət Proqramında bitkiçiliyin, o cümlədən üzümçülüyün, şərabçılığın, heyvandarlığın, arıçılığın, baramaçılıq və ipəkçiliyin inkişafı, kənd təsərrüfatı məhsullarının emal və qablaşdırma sahələrinin inkişaf etdirilməsi, spesifik və orqanik kənd təsərrüfatı məhsullarının brendləşdirilməsi və təşviqi, kənd təsərrüfatı istehsal vasitələrilə təminat səviyyəsinin artırılması, fermerlərə məsləhət xidmətlərinin göstərilməsinin təşkili, aqroparkların yaradılması, suvarma sistemlərinin yaxşılaşdırılması və digər bu kimi məsələlər nəzərdə tutulub. Hazırda proqramdan irəli gələn məsələlərin icrasına başlanılıb, alttədbirlər planı hazırlanıb, alttədbirlərdə ehtiyac duyulan bir çox məsələlərin həlli ilə yanaşı, aqrar sahənin inkişafında əsas olan əkinəyararlı torpaqların istifadəsiz saxlanılmasının qarşısının alınması və mütərəqqi suvarma və əkin texnologiyalarından istifadə ilə bağlı təkliflər də verilib. Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı, Ekologiya və Təbii Sərvətlər nazirlikləri, o cümlədən Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti ilə birgə hazırlanmış "Naxçıvan Muxtar Respublikası üzrə su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2023-2025-ci illər üçün Tədbirlər Planı"nda nəzərdə tutulan tədbirlər Dövlət Proqramının alttədbirlər planına daxil edilib.

Proqramda qarşıya qoyulan vəzifələr sırasında xüsusilə baramaçılıq və ipəkçiliyin inkişafı diqqəti çəkir. Məlumdur ki, vaxtilə Naxçıvan Muxtar Respublikasının Ordubad rayonu ipəkçiliyin əsas məskənlərindən sayılıb, ancaq, təəssüf ki, son illərdə bu sahəyə diqqət azaldığından qədim, ənənəvi məşğuliyyət növü məhv olmaq üzrədir. Məhz bu sahəni yenidən dirçəltmək məqsədilə baramaçılığın inkişafında əvəzsiz rol oynayan Ordubad barama toxumu zavoduna, o cümlədən baramaqurutma, baramaaçma və ipək istehsalı istiqamətli fabrikə baxış keçirilib, fəaliyyətin bərpasının təmin olunması istiqamətində yerli və xarici investorlarla danışıqlar aparılıb. Bundan başqa, Ümummilli Lider Heydər Əliyevin 100 illiyi münasibətilə baramaçılığın və ipəkçiliyin inkişafında əsas olan tut bağlarının salınması həyata keçirilib. Belə ki, 2023-cü il 29 mart tarixdə Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Türkiyə Respublikasının Kənd Təsərrüfatı və Meşə Nazirliyi arasında yaradılmış əməkdaşlıq çərçivəsində Ordubad rayonunun Əylis düzündə 1,2 hektar ərazidə Türkiyədən gətirilmiş 3 növ, ümumilikdə, 600 ədəd tut ağacından ibarət "Azərbaycan-Türkiyə ipək bağı" salınıb. Bağ mütəmadi olaraq nəzarətdə saxlanılıb və suvarma suyu ilə təmin olunub. Baramaçılığın inkişafında yem bazasının təşkili üçün bağın sahəsinin növbəti mövsümdə genişləndirilməsi nəzərdə tutulub.

Ölkəmizin əsas aqrar regionlarından hesab edilən Naxçıvan Muxtar Respublikasında uzun illərdir, aparıcı məşğuliyyət sahəsi taxılçılıqdır. Başa çatan mövsüm bu baxımdan uğurlarla yadda qalıb. Belə ki, 2022-ci ilin payızında 20 min 762, cari ilin yazında isə 405,7 hektar olmaqla, 21 min 247 hektar sahədə taxıl əkini həyata keçirilib. Taxıl biçininin vaxtında həyata keçirilməsi, məhsulun itkisiz yığılaraq anbarlara daşınması, o cümlədən biçindən sonra tələb olunan aqrotexniki tədbirlərin həyata keçirilməsi ilə əlaqədar işlərin koordinasiyasını təmin etmək üçün Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyində Mərkəzi Qərargah yaradılıb. Eyni zamanda fermerlərin gübrə və subsidiyalarla təminatı da diqqətdə saxlanılıb, 2022-ci ilin dekabr ayında 5 istehsalçıya 91 hektar sahə üçün, ümumilikdə, 13 min 377 manat dəyərində 8918 kiloqram gübrə verilib. Cari ildə payızlıq taxıl əkinlərinə görə isə 6800 istehsalçı 3 milyon 408 min 682 manat dəyərində 6197,6 ton gübrə ilə təmin edilib. Kənd Təsərrüfatı Nazirliyi tərəfindən payızlıq əkinlər üzrə nəzərdə tutulan subsidiya məbləğinin 25 faizi fermer kartlarına köçürülüb, yazlıq əkinlər üzrə isə bu proses davam etdirilir. Görülən qabaqlayıcı, stimullaşdırıcı tədbirlərin nəticəsi olaraq, ümumilikdə, 19 min 797 hektara yaxın əkin sahəsində taxıl biçilib, 49 min 267 tondan artıq məhsul toplanıb. Toplanan məhsulun 12 min 233 hektarını buğda, 9014 hektarını arpa təşkil edib. Orta məhsuldarlıq hər hektarda 24,9 sentner olub.

Naxçıvanda əkinçiliyin ümumi inkişafına maneə törədən suvarma suyu qıtlığı taxılçılıqdan da yan keçməyib, bu səbəbdən əkin sahələrinə su verilməsi tam təmin olunmayıb. Nəticədə, 1450 hektar sahə tamamilə quruyub. Quruyan sahələrin əksəriyyəti kənd təsərrüfatı təyinatı olmayan torpaqlardır. Cari il avqustun 23-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəflinin iştirakı ilə Kəngərli rayonunda "Taxıl istehsalının inkişafı ilə bağlı 2023-cü ilin yekunları və cari ildə payızlıq taxıl əkinləri üçün qarşıda duran vəzifələr" mövzusunda müşavirədə də məhz suvarma suyu ilə bağlı məsələyə xüsusi toxunulub. Belə ki, taxılçılığın inkişafını ləngidən mövcud problemlərdən bəhs edən səlahiyyətli nümayəndə bildirib ki, dünyada baş verən qlobal istiləşmə Naxçıvana da təsirsiz ötüşməyib. Muxtar respublikanın su mənbələrinin su ehtiyatı dəfələrlə azalıb. Son bir neçə ildir, əsas su hövzələrindən olan Arpaçay yay aylarında, demək olar ki, quruyur. Bütün bunlar əkinçiləri ciddi su problemi ilə üz-üzə qoyur. Mövcud vəziyyət yeni mübarizə metodlarının, innovativ üsulların tətbiqini şərtləndirir. Müşavirədə problemin həlli yollarından da bəhs olunaraq qeyd edilib ki, bir çox yerlərdə suvarma şəbəkələrinin istismar müddətini başa vurması suvarma suyunun verilməsi zamanı 40-50 faiz həcmində itkilərə səbəb olur. Bu itkilərin aradan qaldırılması məqsədilə suvarma şəbəkələri mərhələli şəkildə yenidən qurulacaq. Həmçinin su resurslarından səmərəli istifadə üçün növbəti əkin mövsümündən etibarən damcılı suvarma üsulunun tətbiqi üzrə pilot layihələrin tətbiqinə başlanılacaq.

Artıq 9-cu ayına qədəm qoyduğumuz il kənd təsərrüfatı sahəsində daha bir yeniliklə, təsərrüfat adamlarının əsl məhsul bayramına çevriləcək "Aqro festival"la da yaddaşlarda iz buraxacaq. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin təşkilatçılığı ilə sentyabrın 8-i və 9-da "Sahil parkı"nda keçirilməsi nəzərdə tutulan festivalda müxtəlif kənd təsərrüfatı texnikaları, toxum, gübrə və digər istehsal vasitələrinin, o cümlədən kənd təsərrüfatı məhsullarının nümayişi və satışı həyata keçiriləcək. Festivalda iri şirkətlər, aqrar yönümlü müəssisələr, Bakıdan və xaricdən qatılan mütəxəssislər də iştirak edəcək. Eyni zamanda bu gün "Heydər Əliyevin kənd təsərrüfatının inkişafında rolu" mövzusunda tədbir də keçiriləcək.

*Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı sahəsində cəmi 6-7 aylıq müddəti əhatə edən islahatlar çərçivəsində görülən işləri nəzərdən keçirdikdə belə qənaətə gəlmək olar ki, əsas hədəf dəyişən dünya düzəninə, qloballaşan dövrə uyğun yeni texnologiyaların tətbiqi ilə mövcud problemləri həll edərək fermerlərin əməyini yüngülləşdirmək, elmi-texniki tərəqqiyə, innovasiyalı inkişafa nail olmaqdır. Əminik ki, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulan müddəaların, eyni zamanda buna müvafiq alttədbirlərin düzgün şəkildə icrası bu hədəfə daha tez çatmağa imkan verəcək.*

**Nail ƏSGƏROV**

Təhsil millətin gələcəyidir

# Məzunlarını nurlu sabahlara aparan elm, təhsil məbədgahı nailiyyətləri ilə ilk sıradadır

*Mənə doğma olan bu küçələrdən, səkilərdən, yollardan, qarşısında qayğısız şagirdi kimi yox, onun elmindən bəhrələnmiş jurnalist kimi dayandığım bu binadan beş ildir ki, ayrılmışam. Amma heç zaman köhnəlməyən, unudulmayan xatirələri ömür kitabımda daim vərəqlənir. Sanki dünən yaşamışam bu hissləri... əynimdə səliqəli forma, əlimdə bir dəstə çiçək, valideynlərimin əlindən tutub bir ünvana tələsirəm... A məktəb yolları, məktəb yolları, səndə neçə günlərin, ayların, illərin xatirəsi var. Doğma məktəb, əziz müəllimlərim sizdə minlərlə fidanların, şagirdlərin zəhməti, alın təri var... Ancaq o illərdən çox fərqlidir bu görüş, bu dəfə parta arxasında əyləşib dərs danışmağa yox, gələcəyimizə nur çiləyən şagirdlərlə, tələbə adını qazanmış gənclərlə, təbaşirdən çıxan o tozlarla saçına nur çəkmiş müəllimlərlə söhbət etməyə gəlmişəm. Bir sözlə, qəbul göstəricilərinə görə muxtar diyarımızın ümumtəhsil məktəbləri içərisində birincilik əldə edən bu elm məbədgahından – Naxçıvan şəhər 12 nömrəli tam orta məktəbdən danışmağa gəlmişəm. Sevincliyəm, axı mən də bir zamanlar bu məktəbin şagirdi olmuşam...*

Məktəbin həyatında olarkən bir zamanlar mənə dərs demiş müəllimlərimlə salamlaşıb hal-əhval tuturam, gəlişimizin məqsədini izah edirəm. Ayaqüstü söhbətdən sonra məktəb binasında bizi təhsil müəssisəsinin direktoru, ömrünün 40 ilə yaxın bir dövrünü Vətənimizin nurlu gənclərinə təlim-tərbiyə verməyə, şagirdlərinə bilik öyrətməyə həsr etmiş ***Tahirə Qasımova*** qarşılayır. Tahirə müəllim bizimlə söhbət zamanı ilk olaraq təhsil sistemində əsas məsələ sayılan pedaqoji münasibət mövzusuna toxunaraq diqqətə çatdırır ki, şagirdlər vaxtlarının çox hissəsini məktəbdə müəllimləri və sinif yoldaşları ilə keçirirlər. Bildiyiniz kimi, müəllim şagirdlər üzərində əhəmiyyətli nüfuza malik olduğundan müəllim-şagird münasibətləri digər münasibət növlərinə görə təhsilin keyfiyyətinə və şagirdlərin fərdi, mədəni inkişafına daha çox təsir edir. Yaxşı bir müəllimi olan uşaqların özünəinamı duyğusu artır, dərs zamanı fəal olur, həm təhsil müəssisəsinə, həm də sinif yoldaşlarına qarşı daha humanist davranır. Lakin sərttəsiz müəllimə sahib şagirdlərin özlərinə inamı və öyrənmə səviyyələri aşağı düşür. Əslində, yaxşı, pis müəllim və yaxşı, pis şagird anlayışı yoxdur, sadəcə, düzgün üsiyyət qura bilməyən şagird və kommunikativ bacarıqlarını inkişaf etdirməmiş müəllim vardır. Yəni burada inkişafa ehtiyacı olan tərəf, sadəcə, onların bir-birinə olan yanaşmasıdır. Bu səbəblə müəllim-şagird arasında qarşılıqlı inam-dəyər-ünsiyyət-sevgi-hörmətə söykənən münasibətlər qurmaq çox vacibdir. Təvazökarlıqdan bir az uzaq olsa da, düşünürəm ki, Naxçıvan şəhər 12 nömrəli tam orta məktəbin pedaqoji kollektivi buna nail ola bilib. Bunu hər il əldə etdiyimiz yaxşı nəticələrdə də görmək mümkündür.

Tahirə müəllimin söhbəti: – Afiyəddin Cəlilov adına 12 nömrəli tam orta məktəb zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarətdir. Binada 56 sinif otağı, 3 kompüter otağı, 4 elektron lövhəli sinif, həmçinin fizika, kimya, biologiya laboratoriyaları, akt zalı, idman zalı, zəngin kitabxana və digər otaqlar yerləşir. Ümumilikdə, 1360 şagird yerlik məktəbdə, hazırda 1072 şagird təhsil alır və onların təlim-tərbiyəsi ilə 96 müəllim məşğul olur. Pedaqoji kollektivimizdən bir müəllim “Azərbaycan Respublikasının Əməkdar müəllimi” fəxri adına, bir müəllimimiz “Tərəqqi” medalına, iki müəllim “Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi” adına layiq görülüb.

Direktor məktəbin bu illər ərzində əldə etdiyi uğurlardan söhbət açır. Diqqətə çatdırır ki, 2012-ci ildən 2023-cü ilədək məktəbimizdə 5 “Gümüş” və 5 “Qızıl” nişana layiq görülən məzunlarımız olub. Bu nailiyyətlərin davamı kimi, bu il də məktəbimizi bitirən 63 məzundan 58-i keçirilən qəbul imtahanlarında iştirak etmiş, onlardan 3 nəfər 600-700 bal, 13 nəfəri 500-700 bal intervalında nəticə göstərmişdir. Həmin məzunlardan yüksək nəticə toplamış Elnar Əhmədli “Gümüş” nişana, Süleyman Məmmədli və Qəzənfər Babayev fərqlənmə attestatına layiq görülüblər. Hətta məzunlarımız içərisində xarici ölkələrdə təhsil almaq imkanı əldə edənlər də var. Belə ki, məzunlarımızdan biri SAT imtahanında iştirak edərək yüksək nəticə göstərib və Almaniyanın Constructor Universitetində Kompüter elmləri fakültəsinə daxil olub. Dörd məzunumuz isə YÖS imtahanında iştirak edərək qardaş Türkiyə Respublikasının universitetlərində ali təhsil almaq imkanı əldə edib. Bir məqamı da diqqətə çatdırım ki, məzunlarımız müxtəlif intellektual yarışlarda da mütəmadi olaraq iştirak ediblər. Şagirdlərimizdən Emil Nabatov riyaziyyat fənni üzrə maksimum nəticə olan 300 baldan 275 bal, Elnar Əhmədov tarix fənnindən 266 bal, Candaş Məmmədov isə kimya fənnindən 257 bal nəticə qazanmaqla məktəbimizi uğurla təmsil ediblər. Bütün bu uğurların qazanılmasında isə, təbii ki, təhsil müəssisəsimizin savadlı, peşəkar müəllim kollektivinin böyük rolu vardır. İnanırıq ki, bu nailiyyətlərimizi növbəti illərdə də davam etdirəcəyik.



Söhbətimizə adıçəkilən uğurlu məzunlarımızı ən təməlindən, məktəbə daxil olduğu ilk gündən – birinci sinifdən formalaşdıran müəllimimizlə davam edirəm. Müsahibimiz məktəbin yüksək bal toplayaraq ali məktəblərə qəbul olan 11-ci sinfinin ibtidai sinif müəllimi olmuş ***İltifat Bektaşi***dir. İltifat müəllim 40 ilə yaxındır ki, həyatını peşələrin ən müqəddəsi, şərəflisi olan müəllimliyə həsr edib. İllərin ona qazandırdığı təcrübədən, peşəkarlıqdan ürəkdolusu danışan müsahibimiz bizə deyir ki, məktəbi uğurla başa vurmuş hər bir şagirdin müvəffəqiyyətinin, nailiyyətinin təməli elə birinci sinifdə təhsil aldığı ildən başlayır. Bu dövr ərzində ən böyük məsuliyyət, təbii ki, müəllim və valideynlərin üzərinə düşür. İltifat müəllim şagirdləri uğurlara, müvəffəqiyyətlərə sövq edəcək bir mövzuya da toxundu: – Şagirdlər məktəbə daxil olduqları ilk günlərdən potensiallarına uyğun bilik, bacarıq və arzuolunan davranışlar nümayiş etdirirlər. Şagirdin cövhərində, təməlində olan təlim-tərbiyəni, ən əsası isə potensialı görüb düzgün istiqamətləndirmək hər bir müəllimin peşə vəzifəsi olmalıdır. Müəllim şagirdlərinə bilik və bacarıq qazandırdığı kimi, insanlara qarşı sevgi, hörmət, mərhəmət, dostluq, nizam-intizam kimi anlayışları da aşılamalıdır. Bu vəzifə yalnız orta məktəb müəllimləri üçün yox, statusundan asılı olmayaraq, bütün təhsil işçiləri üçün prioritetdir. Müasir Qərb psixologiyasının araşdırmalarına görə, şagirdlər məktəbdaxili münasibətlərdə müəllimlərini özlərinə rol-model seçir və onların mənfi, müsbət bütün davranışlarını nümunə götürürlər. Müəllimin geyimi, hərəkətləri, danışığı, həmkarlarına olan münasibəti, yanaşması şagirdlərin baxışını formalaşdırır. Sübuta ehtiyacı olmayan bir reallıqdır ki, fənn müəllimi şagirdin akademik göstəricilərindən asılı olmayaraq, ona xoş münasibət göstərərsə, şəxsiyyətinə hörmətlə yanaşarsa, bu, şagirdin fənn müəllimini və fənni sevməsinə səbəb olacaqdır. Təcrübə də onu göstərir ki, fənni sevən şagird onu daha yaxşı mənimsəyir, uğur qazanır. Əks-təqdirdə müəllimin şagirdlərin dərs zamanı etdiyi səhvləri “düzəldilməsi mümkün olmayan” yanlış kimi göstərməsi, onlara yenidən cəhd etmək fürsətini yaratmaması, xüsusən də bu səhvləri şagirdlərin bilikləri ilə əlaqələndirməsi, onlarda “qapalı-sabit düşüncə” tərzinin formalaşmasına gətirib çıxarır. Əgər 40 illik pedaqoji fəaliyyətimdə uğur əldə etmişəmsə, bunun yeganə səbəbi şagirdlərimi sevdiyim üçündür...

Uzun illərdir, 12 nömrəli tam orta məktəbdə pedaqoji fəaliyyətlə məşğul olan Azərbaycan dili və ədəbiyyatı müəllimi ***Aynur Fərəcova*** ilə söhbətimizə davam edirik. Müsahibimiz illər əvvəl mətbuatdan öyrəndiyi bir hadisəni bizimlə bölüşərək deyir: – Yaxşı xatırlayıram, illər əvvəl mediadan oxumuşdum ki, qardaş Türkiyə Respublikasının sadə həyat yaşayan, zəhmətsevər insanlarının cəm olduğu bir məhəllədə təhsil alan bütün abituriyentlər yüksək nəticə qazanıb. Bu hadisə həmin illərdə böyük əks-səda yaratmışdı. Çünki məhəllənin uçub-dağılmış, şəraitsiz məktəbində təhsil alan şagirdlərin yüksək nəticə əldə etməsini insanlar heyranlıqla qarşılayırdı, daha doğrusu, bunun mümkünsüz olduğuna inanırdılar. Sonradan məlum olmuşdu ki, müvəffəqiyyət əldə edən məzunların hamısı onları yetişdirən, elm-təhsil öyrədən bir müəllimin şagirdləri olub. Həmin müəllimə sual verilmişdi: – Siz necə oldu ki, bu cür çətin şəraitdə bütün şagirdlərinizə böyük nailiyyət qazandırdınız? Müəllim isə cavabında belə demişdi: – Mən şagirdlərimə sevgimi vermişdim. Müəllim sevgisi elə bir sevgidir ki, elə duyğudur ki, onun işığında Vətən sevgisi, yurd sevgisi, xalq sevgisi var. Bu sevgini şagirdlərinə bəxş edən müəllim necə də xoşbəxtdir, bəxtiyardır. Təvazökarlıqdan bir az uzaq olsa da, deyəsən, biz də bu ömrü belə yaşamadıq.

Aynur müəllim söhbətinə belə davam edir: – Qeyd etmək istəyirəm ki, dövlətimiz təhsilin inkişafını daim diqqət mərkəzində saxlayır. Müasirtipli məktəb binalarının tikintisi, təhsil ocaqlarının maddi-texniki bazasının gücləndirilməsi, həmçinin ucqar kəndlərdə çalışan müəllimlərin, təhsil işçilərinin əməkhaqlarının artırılması, bütün bunlar təhsilin inkişafını şərtləndirən əsas amillərdəndir. Bununla yanaşı, müəllimlərin diaqnostik qiymətləndirmə imtahanının (DQ) aparılması, müəllimlərin işə qəbulu (MİQ) müsabiqəsinin keçirilməsi, məktəblərdə təmayül siniflərinin yaradılması və digər layihələr – bütün bunlar bu gün Azərbaycan təhsilinin uğurlarıdır. Bunun nəticəsidir ki, təhsilimizdə, xüsusən də orta məktəblərdə böyük uğurlarımız var. Ali məktəblərə qəbul zamanı məzunların və eyni zamanda yüksək balla qəbul olanların sayının artması təhsilin keyfiyyətinin yüksəlməsinin sübutudur. Bu istiqamətdə dövlət təhsil siyasətinin əldə etdiyi uğur bu il 12 nömrəli tam orta məktəbin payına düşüb.

Müəllimlərimizlə maraqlı keçən söhbət bizə xatırladır ki, hələ qədim zamanlardan müdriklər təhsili “uğurlu gələcəyə açılmış qapı” adlandırırlar. XIII əsr İslam aləminin böyük mütəfəkkiri Mövlana Cəlaləddin Rumi yazırdı: “İnsanda iki böyük fəzilət var: birincisi təhsil, ikincisi fədakarlıqdır. Bəzilərində təhsil var, fədakarlıq yoxdur, bəzilərində fədakarlıq var, təhsil yoxdur. Hər ikisinə sahib olan şəxslər xoşbəxtdirlər”.

Daim azərbaycanlıları xoşbəxt, dövlətimizi isə müstəqil görmək istəyən, bu yolda əsl fədakarlıq və sonsuz iradə nümayiş etdirən Ulu Öndərimiz Heydər Əliyev təhsil olmadan ölkənin gələcəyinin qurulmasının mümkün olmadığına diqqəti cəlb edərək deyirdi: ***“İndi bizim təhsilimizin əsas məqsədi gənc nəslə, uşaqlara təhsil verib, onları gələcəyə hazırlamaqdır. Amma bununla yanaşı, ən böyük məqsəd Azərbaycan vətəndaşını hazırlamaqdır”.***

Məktəbi müvəffəqiyyətlə başa vuran məzunlardan ***Süleyman Məmmədli*** ilə də həmsöhbət olduq. Qeyd edək ki, Süleyman qəbul imtahanlarının hər iki mərhələsində iştirak edərək 573 bal toplayıb. İxtisas seçimində Azərbaycan Dövlət Neft və Sənaye Universitetini seçib və o, həmin ali təhsil ocağının tədrisi ingilis dilində olan Kompüter mühəndisliyi ixtisasında təhsil alacaq. Süleyman deyir ki, ali məktəbə qəbul olmaq üçün ilk öncə orta məktəb proqramını yüksək səviyyədə mənimsəmək, seçəcəyin ixtisas üzrə fənləri dərindən öyrənmək vacib şərtdir. Hər halda orta məktəbdə dərslərə laqeyd yanaşan biri, fikrimcə, istədiyi ixtisas üzrə ali məktəbə qəbul ola bilməz. Biz məktəbdə oxuduğumuz müddətdə müəllimlərimizin verdiyi tövsiyələrdən istifadə etməyi bacarmalıyıq. Əlbəttə ki, hər hansı kursa və ya repetitor hazırlığına getməklə də öz biliyimizi artıra bilərik. Ancaq orta məktəbdə aldığımız fundamental təhsil olmadan biz heç vaxt ali məktəbə qəbul ola bilmərik. Qəbul olsaq belə yüksək nəticə əldə etmək çətindir. Bir də ki, bu yol, sözün əsl mənasında, səbir və əzmkarlıq tələb edir. Təbii ki, müəllimlərimizin, valideynlərimizin də dəstəyini inkar etmək olmaz. Tələbə adını qazanmağımda mənə düzgün yol göstərən müəllimlərimə, ən əsası isə təhsil aldığım 12 nömrəli tam orta məktəbin pedaqoji kollektivinə minnətdarlığımı bildirirəm.



*Ulu Öndər Heydər Əliyev ölkəmizin bu günü, gələcəyi yolunda təhsil siyasətinin zərurətini diqqətə çatdıraraq deyirdi:* ***“Təhsil sahəsi həyatımızın ən gərəkli, ən mühüm sahəsidir. O, milli məqsədlər, mənafelər əsasında qurulmalıdır”.*** *Ölkəmizin bugünkü inkişaf tempinə baxsaq, görərik ki, dövlətimizin xüsusi diqqəti daim təhsil siyasətini əhatə edir, məktəblərimiz, ali təhsil ocaqlarımız dünya təhsil siyasəti ilə müştərək əlaqələr qurur, inkişaf edir, müasirləşir. Bu da, təbii ki, hər il yeni-yeni uğurların qazanılmasına, təlim-tədris ocaqlarımızın müasir tələblər səviyyəsində qurulmasına şərait yaradır. Bu fürsətdən layiqincə istifadə edən müəllimlərimiz, həmçinin şagirdlərimiz təhsildə böyük uğur qazanmağa nail olurlar. Eynilə 12 nömrəli tam orta məktəb kimi. Uğurların, müvəffəqiyyətlərin daim olsun, əziz məktəb, doğma kollektiv...*

**Məcid RƏŞADƏTOĞLU**

## Ulu Öndər Heydər Əliyevin ailəsi gənclərimizə örnəkdir

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Culfa Rayon İcra Hakimiyyəti ilə birlikdə “Ulu Öndər Heydər Əliyevin ailəsi gənclərimizə örnəkdir” mövzusunda tədbir keçirib.

Tədbirdə Culfa Rayon İcra Hakimiyyəti Aparatının əməkdaşı Səkinə Fərzəliyeva Ulu Öndər Heydər Əliyevin keçdiyi şərəfli və nəsillərə örnək həyat yolundan bəhs edib.

Sonra komitənin əməkdaşı Könül Babayeva çıxış edərək bildirib ki, Ulu Öndər Heydər Əliyevin ictimai və siyasi fəaliyyətini araşdıran hər kəs Onun necə qüdrətli, hərtərəfli şəxsiyyət olduğunun şahidinə çevrilir. Müxtəlif peşəli, geniş dünyagörüşlü insanların, həm də əsl ailə həyatını təcəssüm etdirməsi bu gün də gənclərə nümunədir. Azərbaycana rəhbərlik etdiyi hər bir dövrdə çoxuşaqlı və aztəminatlı ailələrə, əmək qəhrəmanlarının ailələrinə xüsusi qayğı göstərir, onların övladlarının təhsilini nəzarətdə saxlayırdı. Vurğulanıb ki, bu gün böyük iftixarla söyləyə bilərik ki, müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimizi, örnək ailə modelini Ulu Öndər Heydər Əliyevin ailəsindən nümunə götürür.



Sonra Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatının aparıcı məsləhətçisi Elşad Cəfərov mövzu ətrafında çıxış edib. Sonda rejissor Vaqif Mustafayevin “Əsl məhəbbət haqqında” filmi nümayiş olunub.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## *“Naxçıvan qaziləri”* İctimai Birliyinin yığıncağı olub



Yeni təsis olunan “Naxçıvan qaziləri” İctimai Birliyinin yığıncağı keçirilib. Gənclər Mərkəzində keçirilən tədbirdə “Naxçıvan qaziləri” İctimai Birliyinin sədri Ceyhun Bayramov və sədr müavini Əli Əlisoy birliyin fəaliyyət istiqaməti və gələcək fəaliyyəti barədə iştirakçılara məlumat veriblər. Bildirilib ki, bu ilin aprel ayından fəaliyyətə başlayan “Naxçıvan qaziləri” İctimai Birliyinə üzvlük üçün 50-dən artıq müraciət qeydə alınıb. Vurğulanıb ki, bu birlik ana Vətənimiz Azərbaycanın ərazi bütövlüyü uğrunda təcavüzkar erməni işğalçı ordusuna qarşı döyüşmüş və yaralanmış qaziləri, şəhid ailələrini, müharibə veteranlarını birləşdirir. Məqsəd qazilərə, şəhid ailələrinə, müharibə veteranlarına qanunla şamil olunan güzəşt və imtiyazlardan istifadədə kömək etməkdən ibarətdir.

Tədbirdə ilkin olaraq “Naxçıvan qaziləri” İctimai Birliyinə üzv olan 22 qaziyə vəsiqələr və müxtəlif tədbirlərdə fəal iştirak edənlərə birlik tərəfindən diplomlar təqdim olunub.

**Xəbərlər şöbəsi**

# Tələbələrin yaddaqalan Şuşa xatirələri

*Azərbaycan Respublikası Gənclər Fondunun dəstəyi və Azərbaycan Tələbə-Gənclər Təşkilatları İttifaqının təşkilatçılığı ilə “Şuşa tələbələrin gözü ilə” layihəsi başa çatıb. Qürurvericidir ki, bu tədbirdə Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər və hüquq fakültəsinin tələbələri də iştirak ediblər.*




Azərbaycan Tələbə-Gənclər Təşkilatları İttifaqının baş katibi ***Rəşad Zeynalov*** deyir ki, müzəffər Ordumuzun işğaldan azad etdiyi doğma torpaqlarımıza qayıdış prosesi Qarabağın incisi olan Şuşada və ətraf ərazilərdə geniş vüsət almağa davam edir. 3-5 sentyabr tarixlərdə adıçəkilən təşkilatların təşəbbüsü ilə nəzərdə tutulmuş layihənin reallaşdırılmasında məqsəd müəyyən kriteriyalar əsasında seçilmiş gənclərin ölkəmizdə gedən proseslərlə yaxından tanışlığı, eyni zamanda tələbələrin Şuşanın tarixi və mədəni abidələri və orada aparılan bərpa-quruculuq işləri ilə tanış edilməsi idi. Bu mənim Şuşaya ilk səfərim olmasa da, ilk təəssüratımda keçirdiyim hisslər yenə də təkrar olunurdu. Zəfər yolu ilə hərəkət etdikcə anlayırdım ki, bu heç də gün boyu getdiyimiz ünvana çatdıran adi, sadə yol deyil. Bu yol qanla çəkilib. Şəhid və qazilərin qanı ilə. Yəqin ki, Şuşa həm də buna görə müqəddəs hesab olunur.

Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisası üzrə II kurs tələbəsi ***Məhəmməd Ramazanov***un dediklərindən: – Layihədə iştirak etmək üçün, ilk növbədə, qeydiyyatdan keçdik, sonra isə bizimlə görüntülü əlaqə saxlayıb, Şuşa haqqında olan biliklərimiz yoxlanıldı. Seçildiyimi eşidən zaman çox sevindim, çünki Şuşanı görmək uşaqlıq arzum idi. Füzulidən başlayan yolumuzda ətrafda düşmənin viran qoyduğu dağınıq evlər görünürdü. Buna baxmayaraq, şəhərdə quruculuq işlərinin aparılması hər birimizi sevindirirdi. Şuşaya gedərkən yolların, həqiqətən də, çətin olduğu görünürdü, Azərbaycan igidlərinin sıldırım qayalardan dırmaşaraq Şuşanı necə azad etdiyini düşündükdə insan, həqiqətən də, heyrətə gəlirdi. Biz ilk olaraq Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin və Bülbülün büstlərini, sonra tarixi Natəvan bulağını ziyarət etdik, Şuşaya gəlib bu sudan içməmək mümkünsüz olardı. Şuşa qalası hər birimizdə dərin təəssüratlar yaratdı. Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin Prezident cənab İlham Əliyevin tapşırığına əsasən təmir-bərpa və yenidənqurma işlərinin görülməsindən sonrakı görkəmi ölkə başçısının mədəni irsimizə böyük qayğısının ifadəsi kimi hər birimizi sevindirdi. Şuşadan böyük qürur hissi ilə geri qayıtdıq. Şuşadan geri döndüyümüz zaman içimdə, sadəcə, bu sözlər var idi: “Əziz Şuşa, sən azadsan!”

Hüquqşünaslıq ixtisasının tələbələrindən ***Elmir Quliyev*** deyir: – Şuşaya gedərkən yolda bütün gənclərin gözlərində müşahidə etdiyim sevinci təsəvvür edirsinizmi? İşğaldan azad olunmuş ərazilərə keçmək üçün posta daxil olduqdan sonra erməni vandalları tərəfindən dağıdılmış Füzuli rayonunu gördükdə, 1990-cı illərdə orada alınan canları düşündükdə və həmçinin 2-ci Qarabağ müharibəsində verdiyimiz şəhidlərimiz ağlıma gəldikdə ürəyimdə ermənilərə daha da böyük nifrət yaranırdı. Arzum budur ki, bir daha Şuşaya və həmçinin Qarabağın digər bölgələrinə öz işində ixtisaslaşmış bir hüquqşünas olaraq gedib orada yaşayan insanların hüquq və azadlıqlarını müdafiə edim.

Hüquqşünaslıq ixtisasının 5-ci kurs tələbəsi ***Züleyxa Tamarova*** söhbət zamanı dedi:

– Uşaqlıqdan bəri 1-ci Qarabağ müharibəsi qazisi olan atamın uğrunda döyüşdüyü torpaqları görmək mənim ən böyük arzum idi. Şuşaya yaxınlaşdıqda ətrafdakı təbiətin, yolların gözəlliyi məni valeh etmişdi. Yüksəklikdə dalğalanan Azərbaycan Bayrağını gördükdə duyğulanıb qürurlanmamaq mümkün deyildi.

Şuşanı gəzərkən buranın azad olunması uğrunda canlarından keçən, sağlamlığını qurban verən igid döyüşçülərimizin nəfəsini sanki hiss edirdik. Bu isə bütün gənclərin ruhunda vətənpərvərlik hissi oyadırdı. Şuşanın, həmçinin Qarabağın azad olunması üçün var gücü ilə çalışmış Ali Baş Komandanımız Prezident cənab İlham Əliyevə, bütün qəhrəman Azərbaycan xalqına, öz canını bu Qələbədə qoymuş, böyük şücaət göstərən Azərbaycan əsgərinə və bizim buraya gəlməyimizə vasitəçi olmuş Azərbaycan Tələbə-Gənclər Təşkilatı İttifaqına öz dərin minnətdarlığımı bildirirəm.

Universitetin Beynəlxalq münasibətlər və hüquq fakültəsinin tədrisi ingilis dilində olan Beynəlxalq münasibətlər ixtisası üzrə II kurs tələbəsi ***Nilufər Cəfərli***: – Bu günlərdə sosial şəbəkələrdə izləyicisi olduğum Azərbaycan Gənclər Fondunun “Şuşa tələbələrin gözü ilə” adlı layihəsi ilə qarşılaşdım və layihədə iştirak etmək üçün onlayn qaydada qeydiyyatdan keçdim. Qısa müddətdə layihədə iştirakım təsdiqləndi və mən Şuşa şəhərinə səfər etmək arzumun reallaşacağı sevincini yaşamağa başladım. Azad olunduqdan sonra Azərbaycan Prezidentinin Şuşaya dəfələrlə səfər etməsi, 2021-ci il iyunun 15-də burada Azərbaycanla qardaş Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Bəyannamənin imzalanması, 2022-ci ili “Şuşa ili” kimi qeyd etməyimiz, bu şəhərdə artıq xeyli beynəlxalq və ölkə miqyaslı tədbirlərin keçirilməsi Şuşanı bütün dünya azərbaycanlılarının dillər əzbərinə çevirib.

Şuşa yalnız bir şəhər kimi özünəməxsus gözəlliyə malik deyil, şəhər və şəhərətrafı yamyaşıl meşələri ilə, gözəl təbiət mənzərələri ilə, əsrarəngiz təbiəti ilə məni və bütün səfər iştirakçılarını valeh etdi. Gəzintimiz Şuşamızın öz əzəməti ilə bizi bir anlıq özünün 270 illik tarixinə səyahətə aparan məşhur Qala qapılarından başladı. 30 illik işğaldan sonra Cıdır düzündə biz Qarabağın tərtəmiz, azadlıq qoxan havasını doyunca sinəmizə çəkdik, bütün Qarabağın gözlə görünən təbii gözəlliklərinə tamaşa etdik. Bu il sentyabrın üçü mənim həyatıma, belə demək mümkünsə, “Şuşa günü” kimi daxil oldu.

*Tələbələrin Şuşa haqqındakı xatirələrini dinlədikcə 3 il bundan əvvəl qazandığımız qələbəni və bu torpaq uğrunda canından keçən igidləri yada salıram. Deyirəm ki, ruhunuz şad olsun, igidlər. Siz öz canınızı Vətən torpağına qurban verib bu gənclərə bütöv Azərbaycanı hədiyyə etdiniz. Biz gənclər də sizin bizə əmanət etdiyiniz Şuşalı, Laçınlı, Ağdamlı bütöv Vətəni göz bəbəyimiz kimi qoruyub, özümüzdən sonrakı nəslə ərməğan edəcəyik.*

✍ **Bülbül QULİYEVA**

*Naxçıvan Voleybol Federasiyasının hesabat-seçki yığıncağı keçirilib. Gündəlikdə duran məsələlər federasiyanın fəaliyyəti, görülən işlərin müzakirəsi, eləcə də federasiyaya yeni sədrin seçilməsi olub.*

# Federasiyanın hesabat-seçki yığıncağı keçirilib



Yığıncaqda Naxçıvan Muxtar Respublikasının gənclər və idman nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Məcid Seyidov çıxış edərək deyib ki, ölkəmizin iqtisadi qüdrətinin ildən-ilə artması idmanın tərəqqisinə də müsbət təsir göstərir. Dövlət başçısının atdığı addımlar sayəsində Azərbaycan idmanı böyük inkişaf yolu keçib, beynəlxalq aləmdə yüksək nailiyyətlər qazanılıb, ölkəmiz nüfuzlu turnirlərin keçirildiyi məkana çevrilib. Dövlət siyasətinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasında da bədən tərbiyəsi və idmanın davamlı inkişafı üçün mühüm işlər görülür, gənclərin sağlam həyat tərzinə cəlbi diqqət mərkəzində saxlanılır. İdmançılarımız ölkəmizi beynəlxalq arenada uğurla təmsil edir. Təkcə cari ilin ötən dövründə ölkə, beynəlxalq miqyaslı yarışlar, Avropa və dünya çempionatı və kuboklarından 62 qızıl, 58 gümüş və 77 bürünc medal əldə olunub. Məcid Seyidov Naxçıvan Voleybol Federasiyasının fəaliyyəti haqqında da danışıb. Qeyd olunub ki, 2002-ci ildə yaradılmış federasiyanın muxtar respublikanın bütün şəhər və rayonlarını əhatə edən 46 məşq qrupunda 630 nəfər yeniyetmə və gənc aktiv şəkildə bu idman növü ilə məşğul olur. Federasiyanın mövcudluğu bu idman növündə kütləviliyin yaradılması, istedadlı idmançı nəslinin yetişməsi, məşqçi və hakim bazasının formalaşmasına səbəb olub. Ötən dövr ərzində Naxçıvan komandası ölkə miqyaslı yarışlarda uğurlu nəticələrə nail olub, muxtar respublikamız ölkə çempionatının final mərhələsinə ev sahibliyi edib. Burada yetişən voleybolçularımız milli komanda və müxtəlif klublarda çıxış etməklə kariyeralarında müəyyən yol qət etməyi bacarıb. Onların bir neçəsi hazırda məşqçi və ya oyunçu kimi fəaliyyətini davam etdirir. Sevindiricidir ki, yeni infrastruktur imkanları sayəsində son dövrlər çimərlik voleybolu da ilkin inkişaf prosesinə daxil olub. Uzun müddətdir ki, qızların voleybola cəlbi ilə bağlı atılan addımlar, xüsusən də məşqçi əməyinin nəticəsi olaraq son bir neçə ildə qadın voleybolunda nəzərəçarpan irəliləyişlər müşahidə olunur. Naxçıvanda köklü voleybol ənənələrinin bu gün də yaşadıldığını diqqətə çatdıran nazir müavini əlavə edib ki, mövcud potensiallar bu sahədə daha böyük nailiyyətlər qazanmağa imkan verir, gələcək hədəf və nəticələr üçün əlverişli zəmin yaradır.

Federasiyanın sədr müavini Aydın Mirzəyev qurumun ötənilki fəaliyyəti barədə ətraflı məlumatı diqqətə çatdırıb.

Sonra səsvermə olub.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Naxçıvan Baş Gömrük İdarəsinin rəisi Vüqar Əliyevin federasiyanın sədrliyinə namizədliyi irəli sürülüb. Təklif yekdilliklə qəbul olunub və Vüqar Əliyev Naxçıvan Voleybol Federasiyasının sədri seçilib. Federasiyanın yeni sədri göstərilən yüksək etimada görə minnətdarlığını ifadə edərək Naxçıvan voleybolunun inkişafı və uğurlu gələcəyi üçün federasiya kollektivi ilə birgə maksimum çalışacaqlarını bildirib, yaxın gələcək üçün qarşıya qoyulan vəzifə və tapşırıqların icrası istiqamətlərindən bəhs edib. Vüqar Əliyev voleybolun inkişafı yönündə işlər aparılacağını və bu baxımdan aid dövlət qurumları və idman təşkilatları ilə işgüzar əlaqələrin gücləndiriləcəyini diqqətə çatdırıb.

Bədən tərbiyəsi və idmanın inkişafı yönündə dövlət siyasətini həyata keçirən nazirliyin bu yöndə federasiyalarla da qarşılıqlı şəkildə fəaliyyət göstərdiyini, birgə tədbirlər həyata keçirdiyini xatırladan Məcid Seyidov Naxçıvan Voleybol Federasiyası ilə işgüzar əlaqələrin daha da güclənəcəyinə, birgə və məqsədyönlü fəaliyyət sayəsində voleybolun inkişafı yolunda yeni uğurların əldə olunacağına inamını ifadə edib.

Çıxışlardan sonra gündəlikdə duran məsələlərlə bağlı hazırlanan qərar layihəsi təsdiq olunub.

✍ **Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin internet saytı *“GOV.AZ”* zonasına köçürülüb



Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin elektron informasiya resursu yeni *“nscwra.gov.az”* domen adı ilə “AzStateNet” şəbəkəsinə köçürülüb. Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin proqramçıları tərəfindən sayt ümumi dizayn, texniki imkanlar nəzərə alınaraq müasir proqramlaşdırma dillərindən istifadə edilərək hazırlanıb. Yenilənmiş veb-sayt yüksək dini-mənəvi mühitin qorunub saxlanılması və inkişaf etdirilməsi istiqamətində olan yeniliklərin, həyata keçirilən tədbirlərin daha dolğun və operativ şəkildə ictimaiyyətə çatdırılmasını təmin edəcəkdir.

Qeyd edək ki, sayt istifadəçi rahatlığını təmin etmək üçün müasir üslubda tərtib edilərək hər bir istifadəçinin kompüterinin, planşetinin və ya mobil telefonunun ekran ölçülərinə (responsive dizayn) uyğun hazırlanıb. Həmçinin internet səhifəsinin SSL (təhlükəsizlik) sertifikatı ilə təmin olunması, axtarış sistemlərinə uyğunlaşdırılması və ilk sıralarda tapılması üçün mütəxəssislər tərəfindən zəruri texniki tədbirlər həyata keçirilib, eləcə də domenə bağlı e-poçt adresi ilə təmin olunması da diqqətdə saxlanılır.

## 8 ay ərzində 300-dən artıq elektron imza sertifikatı verilib

Elektron imza sertifikatının tətbiqi və dövlət orqanlarında elektron xidmətlərin göstərilməsi muxtar respublikada uğurla davam etdirilir. Cari ilin yanvar-avqust ayları ərzində 1-i vətəndaş, 6-sı sahibkar, 64-ü hüquqi şəxs, 231-i dövlət qurumu olmaqla, ümumilikdə, 302 elektron imza sertifikatı qanunvericilikdə nəzərdə tutulmuş qaydada hazırlanaraq aidiyyəti üzrə istifadəçilərə təqdim edilib.

Elektron imzadan bütün vətəndaşlar, o cümlədən dövlət orqanları, fiziki və hüquqi şəxslər istifadə edə bilərlər. İmzanı almaq üçün qanunvericiliklə müəyyən olunmuş sənədlər Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinə təqdim olunmalıdır. Sertifikat əldə etmək üçün ödəniləcək dövlət rüsumu hüquqi şəxslər üçün 72 AZN, dövlət qurumları üçün 58 AZN, sahibkarlar üçün 36 AZN, vətəndaşlar üçün 18 AZN təşkil edir, istifadə müddəti isə 3 ildir. Elektron imza və ondan istifadə qaydaları barədə ətraflı məlumatları *nmincom.gov.az* və ya *token.sima.az* saytı vasitəsilə əldə etmək olar.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Elan

“Naxçıvan” Universiteti müvafiq kafedralar üzrə kafedra müdiri vəzifəsinə vakant yerləri tutmaq üçün müsabiqə elan edir. Müsabiqədə aşağıdakı şərtləri ödəyən Azərbaycan Respublikası vətəndaşları, həmçinin mövcud qanunvericiliyin tələbləri gözlənilməklə xarici ölkə vətəndaşları iştirak edə bilər.

1. Müvafiq kafedranın profilinə uyğun peşə-ixtisas hazırlığına malik olmalıdır;
2. Ən azı 5 il elmi-pedaqoji təcrübəyə malik olmalıdır;
3. Elmi ad və elmi dərəcəyə malik olmalıdır.

Kafedra müdiri vəzifəsi üçün vakant yerləri tutmaq istəyən namizədlər “Naxçıvan” Universitetinin Tədris şöbəsinə müraciət edə bilərlər. Ərizəyə aşağıdakı sənədlər əlavə olunmalıdır:

- *kadrlar uçotunun şəxsi vərəqəsi;*
- *tərcümeyi-hal;*
- *ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin surətləri;*
- *elmi və elmi-metodiki işlərin siyahısı;*
- *kafedra müdirinin müvafiq struktur bölmənin inkişafı ilə bağlı platforması*

***Kafedralar üzrə vakant yerlər aşağıdakı kimidir:***

Təbiət elmləri kafedrası müdiri

Riyaziyyat və informatika kafedrası müdiri

İdarəetmə kafedrası müdiri

Pedaqogika və psixologiya kafedrası müdiri

Müsabiqə üçün sənədlər bu elan qəzetdə dərc olunduğu gündən bir ay müddətində müvafiq qaydada təqdim edilə bilər.

***Ünvan: Naxçıvan şəhəri, Babək məhəlləsi 1, “Naxçıvan” Universiteti şəhərciyi***
***Telefon: (036) 545-07-45***

### İtmişdir

Türkiyə Respublikasının vətəndaşı Mehmet Rizvan oğlu Elbirin adına verilmiş kimlik itdiyindən etibarsız sayılır.

***

Türkiyə Respublikasının vətəndaşı Berkant Özdemirin adına verilmiş kimlik itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonu, Mahmudoba kəndində Quliyeva Pakizə Tahar qızının adına verilmiş 84 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonunun Vənənd kəndində yaşamış Quliyev Kamil Cəfər oğlunun adına olan $1275^A$ və $1275^B$ inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamələr” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor müavini: MƏMMƏD BABAYEV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
www.serqqapisi.gov.az
Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 526